# Azad edilmiş ərazilərimizin Azərbaycanın abad zonasına çevriləcəyi vaxta az qalır

***Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin bərpası və sakinlərin ləyaqətli şəkildə öz doğma torpaqlarına qaytarılması məsələsi Prezident İlham Əliyevin daim diqqət mərkəzindədir. Dövlət başçısı bu və ya digər azad olunmuş rayona səfərə gedərkən mütəmadi olaraq bu məsələyə toxunur. Elə bu günlərdə Kəlbəcər və Laçın rayonlarına səfəri zamanı da dövlət başçısı ərazilərimizin tamamilə bərpa olunacağını, bu istiqamətdə sürətli işlərin getdiyini bəyan etdi.***

Azərbaycan liderinin dağıdılmış, talan edilmiş yurd yerlərimiz haqqında dedikləri, həqiqətən, adamı dəhşətə gətirir. Prezident ürək ağrısı ilə bildirirdi ki, bizim meşələrimiz ermənilər tərəfindən məhv edilib. Hazırda əlimizdə "Azərkosmos"un həmin ərazilərdən çəkdiyi fotolar var – işğaldan əvvəl neçə min hektar ərazi meşə altında olub, indi nə qədərdir. Ağaclarla dolu olan altmış min hektara yaxın sahəni, meşə fondunu ermənilər dağıdıblar, kəsiblər, talayıblar, aparıblar. Əlbəttə, dövlət başçısının xüsusilə qeyd etdiyi kimi, bu talançılığa görə onlar cavab verəcəklər.

Ermənilər çaylarımızı, o cümlədən Oxçuçayı zəhərləyiblər. Prezident İlham Əliyev bildirdi ki, ölkəmizə vurulmuş hər bir ziyan hesablanır. Azad edilmiş bütün torpaqlarda, şəhərlərdə, kəndlərdə indi monitorinq aparılır, pasportlaşdırma aparılır, bütün evlərin pasportları hazırlanır, dəymiş ziyan təsbit edilir, sonda beynəlxalq məhkəmələrdə bütün ziyanın qaytarılması tələb ediləcək.

Prezident, eyni zamanda, azad edilmiş torpaqlarda böyük infrastruktur obyektlərinin təməlinin qoyulduğunu, Laçın rayonunda beynəlxalq hava limanının tikintisinə start verildiyini qeyd etdi. Onun sözlərinə görə, artıq Füzulidə və Zəngilanda da bu işlərə start verilib. Füzuli Beynəlxalq Hava Limanı bu ilin sonuna, ya da gələn ilin əvvəlinə istismara tam hazır olacaq. Zəngilan hava limanı isə 2022-ci ildə istifadəyə veriləcək. Yeni inşa edilən və ediləcək hər üç hava limanında uçuş-enmə zolağı üç kilometrə bərabərdir. Yəni, bütün növ təyyarələr, o cümlədən, ən ağır yük təyyarələri də bu hava limanlarına enə biləcək.

Beləliklə, azad edilmiş bölgələrin – Şərqi Zəngəzurun, Qarabağın bərpası, insanların buraya, bu zonaya qaytarılması üçün yeni imkanlar açılacaq. Prezident İlham Əliyevin dediyi kimi, Zəngilan, Laçın, Füzuli hava limanlarının inşa edilməsi və istismara verilməsi bölgənin canlanmasına gətirib çıxaracaq. Bu hava limanları həm yüklər, həm sərnişinlər, həm də hərbi təyinatlı fəaliyyət üçün münüsib olacaq. Dövlət başçısı bununla bağlı dedi: "Biz daim hazır olmalıyıq, daim öz hərbi gücümüzü artırmalıyıq, hərbi infrastruktur yaratmalıyıq və yaradırıq, o cümlədən hava limanları bizim hərbi məqsədlərimizə də xidmət edəcək".

Bundan əlavə, dövlət başçısı bildirdi ki, hazırda Ermənistanla sərhədlər istiqamətində 700 kilometr yolun çəkilişi prosesi gedir və artıq qış gələnə qədər bu işin təqribən 80 faizi görüləcək.



Bununla yanaşı, Prezident 14 iqtisadi rayonun, o cümlədən, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradıldığını, dədə-baba torpağımız olan Qarabağ iqtisadi rayonunda bütün Qarabağ bölgəsinə aid olan rayonların, Şərqi Zəngəzur iqtisadi rayonunda isə Şərqi Zəngəzura aid olan rayonların birləşdirildiyini söylədi: "Qərbi Zəngəzur isə hazırda Ermənistanın nəzarəti altındadır. Ancaq Zəngəzur dəhlizinin çəkilişi nəticəsində, əlbəttə ki, biz bu dəhlizdən istifadə edib öz vətəndaşlarımızı dədə-baba torpaqlarımıza qaytaracağıq. Belə planlar var və bu da təbiidir. Çünki bizim vətəndaşlar indiki Ermənistan ərazisindən, təkcə Zəngəzur mahalından yox, Göyçə mahalından da, – bura ilə həmsərhəddir, – zorla qovulmuşlar və onların tam haqqı var ki, gedib öz dədə-baba torpaqlarında yaşasınlar. Biz bunu sonrakı mərhələyə saxlayırıq".

Bəli, Azərbaycanın Ali Baş Komandanının dediyi kimi, hazırda bizim əsas vəzifəmiz müharibənin nəticələrini möhkəmləndirmək, azad edilmiş torpaqlarda, Azərbaycan–Ermənistan sərhədində bundan sonra da mövqelərimizi gücləndirməkdir. Yenidənqurma, bərpa işlərinə artıq start verilib, bu da əsas vəzifələrdən biridir. Keçmiş məcburi köçkünləri azad edilmiş torpaqlara tədricən qaytarmaq da gündəlikdə duran məsələdir. Bir neçə aydan sonra Zəngilan rayonunda birinci qrup keçmiş köçkünlər yerləşəcəklər. Bununla yanaşı, Ağdam, Cəbrayıl, Füzuli və Xocavənd rayonlarında da pilot kəndlər seçilib. Artıq o kəndlərin də bərpasına start vermək və vətəndaşları oraya qaytarmaq üçün işlər gedir. Ağdam şəhərinin baş planı təsdiqlənib, digər şəhərlərin baş planlarının təsdiqlənməsi yaxın aylarda nəzərdə tutulur. İnanırıq ki, azad edilmiş ərazilərimizin yenidən Azərbaycanın abad zonasına çevriləcəyi vaxta az qalır.

***Elşad MUSAYEV,***
***Bütöv Azərbaycan Partiyasının sədri***

Xalq qəzeti.-2021.- 20 avqust.- S.3.